# “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 115; 2004, N 9, maddə 665; 2006, N 3, maddə 207, N 11, maddə 909; 2007, N 10, maddə 928; 2009, N 10, maddə 761, N 12, maddə 944; 2011, N 6, maddə 459, N 8, maddə 749; 2014, N 7, maddə 757) aşağıdakı dəyişikliklər edilsin:

1. 12.2.1-ci və 18-1.2.1-ci maddələrə “psixiatriya müəssisələrinə” sözlərindən sonra “, qanunsuz miqrantların saxlanılması mərkəzlərinə” sözləri əlavə edilsin.
2. 12.2.7-ci və 18-1.2.2-ci maddələrə “psixiatriya müəssisələrinin” sözlərindən sonra “, qanunsuz miqrantların saxlanılması mərkəzlərinin” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2016-cı il*